# Növbəti parlament seçkiləri ilə əlaqədar maarifləndirmə kursu başa çatdı

(Əvvəli 7-ci səhifədə).

İxtisaslaşdırılmış kursda rayon məhkəməsinin hakimi Feruz Abbasov «Seçki hüququ və onun təminatının qanunvericilik əsasları, aşağı seçki komissiyaları və məhkəmələr tərəfindən seçki hüququnun qorunması mexanizmləri», rayon polis şöbəsi rəisinin müavini Etibar Babayev «Seçici siyahılarının təkmilləşdirilməsi, rəsmi seçki sənədlərinin daşınması və saxlanılmasının təhlükəsizliyinin təmin edilməsi, habelə asayişin qorunmasında Daxili İşlər Nazirliyi orqanlarının rolu. Onların seçki komissiyaları ilə qarşılıqlı əlaqələri», rayon prokurorunun böyük köməkçisi Ruslan Ağayev «Seçki subyektləri, seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növləri» mövzularında çıxış etmişlər.

Kursda məşğələlər «Milli Məclisə seçkilərin keçirilməsi, səslərin hesablanması və nəticələrinin rəsmiləşdirilməsi, bu istiqamətdə məntəqə seçki komissiyalarının fəaliyyətinin təşkili və vəzifələri» mövzusunda keçirilən seminarla başa çatmışdır.

**Qüdrət SƏMƏDOV.**

# Gənc şahmatçımızın uğurları

Bütün idman növləri kimi şahmat idman növü ölkəmizdə, o cümlədən də Qəbələ rayonunda populyar və sevilәndir. Gənclər və İdman idarəsi mütəmadi olaraq şahmat üzrə yeniyetmə və gənclər, kişilər və qadınlar arasında turnirlər və rayon birinciliyi yarışları keçirir. Keçirilən yarışların qalibləri respublika yarışlarında rayonumuzu şərəflə təmsil edirər. Belə şahmatçılarımızdan biri də şahmat üzrə I dərəcəli idmançı Abdulkərimli Şəlalə Ərrəhman qızıdır.



Şəlalə Abdulkərimli uşaq yaşlarından şahmatla mütəmadi olaraq məşğul olaraq Azərbaycan Respublikası Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olmuş, dəfələrlə respublikamızda və xaricdə keçirilən bir çox birinciliklərdə, turnirlərdə fəal iştirak edərək mükafat və diplomlarla təltif olunmuşdur.

Gənclər və İdman Nazirliyi tərəfindən 21-31 avqust 2015-ci il tarixdə keçirilən şahmat üzrə Respublika çempionatının seçmə mərhələsində komandamız rayonumuzu şərəflə təmsil etmişdir. Belə ki, Gədəbəydə kişilər və qadınlar arasında keçirilən respublika çempionatının seçmə yarışlarında Şəlalə Abdulkərimli III yeri tutaraq mükafatlandırılmışdır.

Gənc şahmatçımıza bundan sonrakı fəaliyyətində yeni-yeni uğurlar, nailiyyətlər arzulayırıq.

**Elçin OSMANOV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**

## Cəmşid Naxçıvanski–120

# Hərb tariximizə qızıl hərflərlə yazılan general

Qəbələ rayonun Mərkəzi Kitabxana Sistemində Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan MKS-in direktoru R. Mirzeyev iştirakçılara hərbi xadimin şərəfli ömür yolları haqqında məlumat vermişdir.

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu 10 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

Hərbi xadim, briqada komandiri 1915-ci ildə Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir. Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadrilyonun komandiri olmuş, Brusilov cəbhəsinin yarılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan C. Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli "Anna", 2-ci, 3-cü dərəcəli "Stanislav" ordenləri ilə təltif olunmuşdur.



Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra C. Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizləmişdi. Azərbaycanın müstəqilliyi uğrunda C. Naxçıvanski inamla vuruşmuşdur.

1920-ci ildə Naxçıvanski ikinci Qarabağ süvari polkunun komandiri təyin edilib. Ona Qarabağdakı Əsgəran qalasını erməni daşnaklarından təmizləmək vəzifəsi tapşırılır. Cəmşid xan həmin il aprel ayının 12-dək Ağdam və Xankəndi, eləcə də Şuşanı erməni quldurlarından təmizləyib.

C. Naxçıvanski 1931-ci ildən isə Frunze adına Hərbi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirib. Sonra isə həmin akademiyanın ikinci kurs rəisi kimi yüksək vəzifədə çalışıb.

C. Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada qısa müddətli Frunze Adına Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur.

Rusiya tarixçisi və yazıçısı Rudolf İvanovun Cəmşid Naxçıvanski haqqında yazdığı "Sovet İttifaqı adından... Briqada komandiri Naxçıvanskinin həyatı və ölümü" kitabı 2007-ci ildə Moskvada çap olunmuşdur. Bu kitab C. Naxçıvanski haqqında yazılan ilk mükəmməl tarixi monoqrafiyadır. Kitabda Naxçıvan xanlarının əfsanəvi sülaləsindən olan sonuncu general, imperiya müharibəsinin qəhrəmanı, qoşun başçısı, Stalin repressiyasının qurbanı Cəmşid Naxçıvanskinin faciəli taleyindən bəhs olunur. Kitabın müəllifi saxta ittihamla üç dəfə həbs olunan (1920, 1931 və 1938) və iki dəfə güllələnmə hökmünə məhkum olunan Azərbaycan xalqının böyük oğlunun həyat yolundan parlaq səhifələr təsvir edib. R. İvanov arxiv sənədlərinə əsasən Naxçıvanskinin güllələnmə tarixini dəqiqləşdirməyə müvəffəq olub. Bu, 1938-ci ilin may ayında baş verib. Naxçıvanski Moskva ətrafında «Kommunarka-Loza» obyektində SSRİ-nin digər tanınmış siyasi və hərbi xadimləri, Buxarin, Rıkov, Karayev, Bünyadzadə, Verxovski, Levandovski və başqaları ilə birlikdə dəfn edilib. . Azərbaycan Respublikası Prezidentinin “Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında” 2015-ci il aprelin 2-də və “Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”-nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il aprelin 9-da imzaladıqları sərəncamlar bu görkəmli hərbçi xadimin həyat və fəaliyyətinin öyrənilməsində növbəti addımdır.

Hərbi xadimin şərəfli adı xalqına Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev tərəfindən qaytarılmışdır. İndi onun adına Bakıda hərbi lisey və küçə vardır, ana yurdu Naxçıvanda isə xatirə muzeyi yaradılmışdır.

Sonda tədbir iştirakçıları hərbi xadimin ömür yolunu əks etdirən stendlə tanış oldular.

**Ülkər QƏDİROVA,**
**MKS-in operatoru.**


# ELANLAR

Mıxlıqovaq bələdiyyəsi tərəfindən Mıxlıqovaq kənd sakini **Mahmudova Səfayət Əhməd qızının** adına verilmiş 03 hektar torpaq sahəsi haqqında **5271 №-li ilkin sənədlər** itdiyi üçün etibarsız sayılır

Bum qəsəbə (kənd) sakini **Şəfiyev Rasim Nazim oğluna** 14 yanvar 1977-ci il tarixdə verilmiş AAH seriyalı 890667 № li **Sürücülük vəsiqəsi** (protokol tarixi 04.01. 1977) itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1966-cı il tarixdə **Söhbətov Firudin Feyruz oğlunun** adına verilmiş 1679 A nömrəli (kodu 40600048) **Torpağın mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reystri Xidməti 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayonu Qaradeyn kənd sakini **Yusibov Ərziman Ramazan oğlunun** adına verilmiş seriya RX 0643549 №-li **Hüquqların Dövlət Qeydiyyatı haqqında daşınmaz Əmlakın Dövlət reystrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 07 noyabr 1997-ci il tarixli 19 saylı qərarla Böyük Əmili kənd sakini **Paşayev Cərkəz Alpaşa oğlunun və ailə üzvü Paşayeva Famile Veysəl qızının** adına verilmiş JN 110 F nömrəli (kodu 40604028 ) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.



Məsul katib
N. R. Atakişiyev.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydədən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.